UOT 94 (479.24)

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ LƏNKƏRAN QƏZASININ ƏKİNÇİLİK TƏSƏRRÜFATI (1900-1913-cü illərdə)

**B.B.KƏRİMOV**
***Bakı Dövlət Universiteti***
***behmen_76@mail.ru***

*Çar Rusiyasının 1870-ci ildə Azərbaycanda həyata keçirilən torpaq islahatı Azərbaycanda kapitalizimin inkişafını əhəmiyyətli dərəcədə sürətləndirdi. XIX əsrin axırlarında və xüsusilə XX əsrin əvvəllərində Azərbaycanın digər qəzalarında olduğu kimi, Lənkəran qəzasında əkinçilik təsərrüfatları xeyli inkişaf etməsinə və Ümumrusiya və dünya əmtəə tədavülünə cəlb edilməsinə gətirib çıxartdı.*

*Şimali Azərbaycanın cənub-şərq regionunu əhatə edən Lənkəran qəzası coğrafi baxımdan düzən, dağətəyi və dağlıq zonalardan ibarət olması xüsusiyyətlərinə görə səciyyələnir. Regionun təbii-coğrafi şəraitinə uyğun olaraq tədqiq olunan ərazinin Xəzər dənizi düzənlik zonasında əhali başlıca olaraq çəltikçilik, dağətəyi zonasında bağçılıq, qismən əkinçilik və maldarlıqla, dağlıq zonada başlıça olaraq maldarlıq və əkinçiliklə məşğul olmuşdur.*

**Açar sözlər:** Lənkəran qəzası, kənd təsərrüfatı, əkinçilik, taxılçılıq, çar Rusiyası

Azərbaycan Rusiya ilə birləşdirildikdən sonra, Rusiya sənayesi üçün xammal hazırlanması üçün Lənkəran qəzasında yetişdirilməyə başlanmış digər spesfik bitki indiqo idi. İndiqonun yetişdirilməsi rus sənayesinin boya maddələrinə olan kəskin ehtiyacı ilə əlaqadar idi. XIX əsrin 30-cu ilindən Azərbaycanda yetişdirilməyə başlanılan indiqo Lənkəran qəzasında 1840-ci ildən əkilməyə başlanmışdı (16, 40).

Lənkəran qəzasında yetişdirilən indiqodan hazırlanmış tünd göy rəng çox baha qiymətləndirilirdi. Onun bir puduna 140 rubl gümüş pul verilirdi. Şamaxı boyaqçıları heç bir vaxt belə yüksək keyfiyyətli tünd göy rəng görmədiklərini etiraf edirdilər (16, 40).

Qəzada müxtəlif təsərrüfat sahələri mövcud olsa da, çəltikçilik yerli əhalinin məişətində daha aparıcı rol oynamışdır. Mənbələrdə qəzanın taxılçılıqla məşğul olan hissəsində əhali eyni bitkini bir neçə il ardıcıl olaraq bir yerdə əkirdi. Başqa sözlə, bütün əkin sahələrində ildən-ilə taxıl bitkiləri əkilməkdədir. Daha sonra qəzada dincə qoyma sistemindən söz açılaraq qeyd edilir ki,

bəzi təsərrüfatlar nadir hallarda öz pay torpaqlarını bir il müddətində əkməyərək dincə buraxırdı. Sonrakı ildə həmin sahədə yenidən taxıl bitkiləri əkilməyə başlanılırdı (17, 83-84).

Lakin mənbənin verdiyi bu məlumat şübhəsiz birtərəfli xüsusiyyət daşıyır. Ona görə ki, əhali arpa, buğda bitkiləri ilə yanaşı, daha onlarla digər bitkilərin əkib becərilməsi ilə də məşğul olurdu. Bu bitkilərin bir-birinin yerində əkilməsi isə əslində yorulmuş torpağın bərpasına səbəb olurdu. Məhz bunu nəzərə alan, habelə ayrı-ayrı bitkilərin bir-biri üçün sələf rolu oynadığını öz təcrübələrində müəyyən edən kəndlilər əkinçilikdə bu təcrübələrdən də geniş istifadə edirdilər. Lakin bunu da xatırlamalıyıq ki, dincə qoyma sistemində tavanalılıq, daha geniş torpaq sahələrinə malik olmaq başlıca şərtlərdən sayılırdı. Yəni geniş torpaq sahələrinə malik olmayan əhali kütləsi kiçik pay torpağını dincə qoymaq imkanından məhrum idi. Buna görə də, Azərbaycanın hər yerində olduğu kimi, Lənkəran qəzasında da torpağın dincə buraxılması əsasən mülkədar təsərrüfatları üçün xarakterik sayılırdı. Regionda Talışxanovlar, Lev Karpoviç, Ter-Stepanov kimi iri torpaq sahibləri geniş torpaq sahələrinə malik olduqlarından öz torpaqlarının bir hissəsini dincə buraxır, başqa torpaqlarını əkib becərirdilər (17, 29). Qəzasında olan 237174 desyatin torpağın 160247 desiyatini xəzinəyə, 70000 desyatini Zaqafqaziyada böyük torpaq sahiblərindən biri olan Mirəhməd xan Talışinskiyə, 1000 desyatini L.Karpoviçə, 400 desyatini Ter-Stepanova məxsus idi. Qalan 5527 desyatin torpaq qəzanın digər sahibkarlarının əlində idi. Onlar özlərinə məxsus min hektarlarla sahələrini öz qüvvələri ilə deyil, başlıca olaraq icaradarlıq yolu ilə əkdirib-becərdirirdilər. Başqa sözlə mülkədar təsərrüfatlarının xüsusiyyəti ondan ibarətdir ki, onlar torpaq sahələrini əkib-becərməyə meyilli deyildilər. Lənkəran qəzasında iri torpaq sahibləri başlıca olaraq icarədarlıq sistemindən istifadə edirdilər.

Qəzanın təbii-coğrafi şəraiti burada müxtəlif kənd təsərrüfatı bitkilərinin əkilməsinə imkan vermişdir. Əkinçilik bitkiləri içərisində buğda, arpa, darı, çəltik, mərci, qarğıdalı, noxud, paxla, bostan bitkilərindən, yemiş, qarpız, boranı və digər bu kimi məhsullar əkilib-berərilmişdi. XIX əsrin sonu XX əsrin əvvəllərində əhalinin məişətinə kartof, kələm, pamidor kimi bitkilər də daxil olmağa başlamışdı.

XIX əsrin birinci yarısına aid olan mənbədə qeyd edilir ki, "Saraçin buğdası (çəltiyi) Talış əyalətində müvəffəqiyyətlə becərilir. Qızılağac və Ərkivan kəndlərindən başlamış, İran sərhədlərinədək xanlığın düzənlikdə yerləşən bütün yararlı torpaqları çəltik əkini altındadır (14, 216). Bu baxımdan, "Lənkəran qəzası bütün Bakı quberniyası üçün düyü anbarı sayılırdı. Qəza hər il quberniyada istehsal olunan düyünün üçdən iki hissəsini verirdi" (17, 56).

Cənubi Qafqazda çəltikçilik təsərrüfatının tədqiqatçılarından biri İ.Z.Andronikovun yazdığına görə XIX əsrin 90-ı illərində Lənkəran qəzasında 13 min desyatindən artıq sahədə çəltik əkilirdi ki, bu da Bakı quberniyasında əkilən çəltik əkin sahəsinin 61 faizini təşkil edirdi. Tarixi faktdır ki, XIX əsrin 70-80-ci illərində Qafqazda ən çox çəltik Azərbaycanda istehsal olunurdu. Mən-

bələrin yazdığına görə Lənkəran qəzasında ildə 2282 min pud çəltik istehsal olunurdu ki, bu da bütün Zaqafqaziyada tədarük olunan çəltiyin 25,2 faizini təşkil edirdi (2, 108).

XX əsrin əvvəllərində Lənkəran qəzasının dənizkənarı hissəsinin demək olar ki, 50 faizə qədərində çəltik yetişdirilirdi. Qəzada hazırlanan əla növlü düyü Rusiya imperiyasının hər yerində yaxşı satılır və yüksək qazanc verirdi. Buna görə də, sahibkarlar onun sahəsini ilbəil genişləndirirdilər. XIX əsrin 90-ci illərində Lənkəran qəzasında 13000 desyatindən çox sahədə çəltik əkilmiş-dirsə, 1905-ci ildə bu rəqəm 64335 desyatinə çatmışdır. Bu baxımdan, bütün Azərbaycan üzrə toplanan məhsulun əsas hissəsində Lənkəran qəzasının xüsusi payı var idi. Belə ki, 1897-ci ildə bütün Azərbaycan üzrə toplanmış 7156104 pud düyüdən 3994480 pudu (19, 5), yəni bütün məhsulun yarıdan çoxu Lənkəran qəzasının payına düşürdü. Sonrakı illərdə də belə nisbət olmuşdur.

Lakin bunu da etiraf etməliyik ki, əkinçilik əhalinin başlıca məşğuliyyət sahəsi olsa da, regionda düyü yeganə ərzaq məhsulu olmamışdır. Əhali çəltik-çiliklə yanaşı taxılçılıqla da məşğul olmuşdur. XIX əsr tarixi ədəbiyyatlarında Talış əyalətində 115 min pud buğda əkildiyini və bu əkilmiş buğdadan 7-12 dəfə artıq məhsul götürüldüyü qeyd edilir. Mənbədə müəllif əyalətdə orta hesabla hər buğdadan 9 dəfə artıq məhsul aldığını əsas götürərək ümumiyyətlə, Talış xanlığının ərazisində hər il orta hesabla 170 min giri və yaxud 1 milyon 135 min pud buğda əldə edildiyini qeyd edir (14, 216-217; 4, 122).

Qəzada buğda ilə yanaşı arpa əkini də geniş yayılmışdı. Mənbələrin verdiyi məlimata görə Talış əyalətində 9 min giri və yaxud 47200 pud arpa əkilirdi. Orta hesabla əkilən hər arpanın 8 dəfə artıq məhsul verdiyini əsas götürən müəllif, burada hər il 60 min gir və yaxud 315 min pud arpa istehsal olunması nəticəsinə gəlir (14, 217; 4, 122). Müəllif onu da qeyd edir ki, arpa başlıca olaraq dağlıq ərazilərdə əkilib becərilirdi.

Tarixi mənbələrin verdiyi məlumata görə XX əsrin əvvəllərində Azərbaycanın ən iri taxılçılıq rayonu Lənkəran qəzası sayılırdı (7, 32). Belə ki, 1910-ci ildə Bakı quberniyasında istehsal edilmiş 12264974 pud taxılın 2208910 pudu Lənkəran qəzasının payına düşürdü (20, 6). Sonrakı dövrlərdə də qəzalar üzrə taxıl istehsalının həcmi belə nisbətdə olmuşdur. 1911-ci ildə Bakı quberniyasında istehsal olunan 8348360 pud payızlıq buğdanın 2988463 pudu Lənkəran qəzasının payına düşürdü (23, 27).

Lənkəran qəzasında çəltik, buğda və arpa ilə yanaşı şəkər qamışı da əkilib-becərilirdi. Tarixi mənbələrin verdiyi məlumata görə Tiflis sakini Qoma Xanumov 10.000 rubl miqdarda gümüş pul qoyaraq Lənkəranın bir neçə kilometrliyində şəkər qamışı plantasiyası təşkil edilmişdi. 1841-ci ildə burada iki desyatin ərazidə şəkər qamışı əkilmiş və bir pud şəkər tozu, on pud şəkər qamışı alınmışdır (4, 123).

Lənkəran qəzasında əhalinin əkib-beçərdiyi bitkilərdən biri də kətan sayılırdı. Kətan başlıca olaraq Lənkəran qəzasının düzən ərazilərində əkilirdi. Mənbələrin yazdığına görə hər il əkilən 200 kovuz və ya 125 pud əkilmiş kətan

toxumundan 350 giri kətan alınırdı. Kətan yerli əhalinin özü tərəfindən istifadə edilir, toxumu isə yağ çəkilmək üçün Gilana satılırdı. Dövrü mənbələrin məlumatına görə 1892-ci ildə rus taciri Kekin Sarı adasını icarəyə götürərək burada kətan əkməyə başlamışdır. Bu onunla əlaqadar idi ki, Kekinin Rastov-Donda böyük kətan zavodu var idi. Sarı adasını icarəyə götürməkdə də onun məqsədi öz zavodu ücün kifayət qədər kətan istehsal etmək idi. 1902-ci ildə burada geniş ərazidə kətan əkilmiş və 3000 pud məhsul alınmışdı. Lakin alınan məhsul lazımi qaydada emal edilmədiyindən hamısı dənizə tökülmüşdür (21, 33).

Qəzanın yüksək dağlıq ərazilərindən fərqli olaraq dağlıq və dağətəyi hissələrində əkinçilik daha üstün mövqe tuturdu. Bu baxımdan, dağlıq zonasının əhalisi özünü taxılla təmin edir, bundan əlavə artıq qalmış məhsullarını Lənkəran, Masallı bazarlarına satışa çıxarıb satırdılar. Bununla yanaşı, taxılın Zuvandda meyvə və tərəvəzlə dəyişdirilməsi üslundan da istifadə edilirdi.

Qəza əhalisi əkinçilikdə muzdlu qüvvədən istifadə edirdilər. Biçin prosesində kəndin kasıblarından, aztorpaqlı əhalidən və qəzada İrandan gəlmiş muzdlu biçinçilərdən istifadə edilirdi. Muzdlu biçinçilərə bir qayda olaraq biçdikləri 20 dərzdən 3, bəzi hallarda 5 dərzdən biri haqq verilirdi (12, 149). Kəndlilərin çox hissəsi az, həm də ən pis torpaqlardan istifadə edirdilər. Onlar öz gəlirlərinin 70 faizdən çoxunu cürbəcür töyücülər və vergilər şəklində mülkədarlara verməyə məcbur idilər.

Dərzin döyülməsində isə hər yüz dərzə muzd haqqı olaraq 40-50 qəpik, döyüm üçün muzdla tutulmuş bir baş atın bir günü üçün 30 funt, bir öküz üçün isə 15 funt buğda verilirdi. Bütün bu proseslər müzdlu fəhlələrlə torpaq sahibləri arasında əvvəlcədən danışıqlar əsasında müəyyən edilirdi. Biçin prosesində əmək haqqı ilə yanaşı, biçinçilər, bir qayda olaraq çörək və yatacaqla da təmin edilirdi.

Qəzanın iri mülkədarları və qolçomaqları, hətta ortabab kəndlilərin çəltik zəmilərində işləyən fəhlələr əsasən Lənkəran qəzası ilə sərhəd olan Cənubi Azərbaycandan gələnlər idi. Bakı kömrük idarəsinin rəisinin 1906-ci ilin dekabr ayında verdiyi bir məlumatda Cənubi Azərbaycandan Lənkəran Astarasına böyük miqdarda fəhlənin gəldiyini qeyd etmişdi (22, 115-116).

Lənkəran qəzasının çəltik zəmilərində muzdla işləyən fəhlələrin bir hissəsi də qəzanın yerli yoxsul əhalisi idi. Qəzanın kəndlərində kapitalist münasibətlərinin yayılması nəticəsində burada təbəqələşmə güclənirdi. Kəndlilər kənd burjuaziyası olan qolçomaqlar və muzdurlar əmələ gəlirdi. Həmin muzdurlar sahibkarın təsərrüfatında işləməyə məcbur idilər. O dövrün sənədlərin birində deyilir: “İranlılarla yanaşı çəltik zəmilərində zuvandlılar da işləyir. Burada əldə etdikləri qazanc onların büdcələrində əsas yer tutur. Onlardan zəmilərdə işləməkdən çox çəltiyin döyülməsində istifadə edirdilər” (1, 141).

Bununla yanaşı, mənbələrdə göstərilir ki, qəza əhalisi düyü xörəklərini çörəklə bərabər tutur, buna görə də, yerli əhali arasında düyüyə böyük tələbat hiss olunurdu. Belə ki, qəzada hər ailə üzvünə ildə 6 pud düyü düşürdü. Bununla belə, qəza əhalisinin ildə 840000 pud düyüyə ehtiyacı olduğu bəlli olur.

Əhalinin gündəlik tələbatını ödəməklə yanaşı artıq qalan çəltik satışa çıxarılırdı. Qəzada hər il 1523000 pud çəltik ixrac olunurdu ki, bununla xüsusi tacirlər məşğul olur, alınmış məhsulu gəmilərlə Astara, Lənkəran və Qızılağacdan daşıyırdılar (17, 80-81).

Bütün bunlarla yanaşı, Lənkəran qəzasında kənd təsərrüfatının inkişafına maneçilik törədən müəyyən səbəblər də var idi. Bunların ən əsası əsas istehsalçılar kütləsinin – kəndlilərin torpağının azlığı və torpağın ibtidai üsulla becərilməsi, aqronomik texnikanın çox cuzi tətbiq edilməsi ilə əlaqədar idi.

Lakin buna baxmayaraq, qəzada elə təsərrüfatlar var idi ki, onlarda torpağın becərilməsi daha intensiv aparılırdı və orada yeni, müasir texnika, yəni dəmir kotanlar, taxıldöyən maşın tətbiq olunurdu. Lakin belə təsərrüfatlar çox az idi və başlıca olaraq Rusiyadan köçüb gəlmiş ruslara, yerli qolçomaq və mülkədarlara mənsub idi. Məsələn, XIX əsrə aid bir mənbədə deyilir ki, Rusiyadan köçüb gələn kəndlilərin təsərrüfatında kotan başlıca olmasa da, əsas rol oynayır, "Torpaq xışla yox, kotanla... beçərilirdi" (19, 79). Bu haqda bir sıra digər mənbələrdə də məlumat verilir. Onların birində deyilir ki, "rusların təcrübəsi tatarlara da (azərbaycanlılara – B.K.) təsir edir, onlardan xeyli hissəsi başlıca olaraq kotan və taxıl yığan kimi yeni alətlərdən istifadə edirdilər" (17, 89).

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatı alətlərinin yayılmasında Zaqafqaziya dəmir yolunun böyük rolu vardır. Bu maşınların baha olmasına baxmayaraq Bakı quberniyasının Privolni və Novoqolovka kəndlərinin sakinləri 1897-ci ildə həmin maşınların hərəsindən ayrılıqda 26 ədəd almışdılar. Az da olsa, bu maşınlardan başqa kəndlərdə də, məsələn, Pirişibdə 16-sı, Pravoslavnıda 3-ü, Petrovskidə 4-ü, Astraxanka və Andreyevkada hər birisində 2-si var idi (1, 38).

Cənubi Qafqazda və həmçinin Azərbaycanda kənd təsərrüfatı maşınları və alətlərinin yayılmasında "Qafqaz kənd təsərrüfatı cəmiyyəti" müəyyən rol oynamışdır. Cəmiyyət kənd təsərrüfatı maşınlarının daha artıq yayılmasına nail olmaq üçün Azərbaycanda anbarı və onun şöbələri yaradılmışdır. Bakıda kənd təsərrüfatı alətləri və maşınlarının satışı ilə "Qustav List" və "Stenun qardaşlarının ticarət evi" texniki idarələri məşğul olurdu. 1912-ci ilin əvvəllərində "Stenun qardaşlarının ticarət evi" firmasının Azərbaycanın digər regionları ilə yanaşı Prişib və Petrapavlovka məntəqələrində maşın şöbələri və məntəqələri var idi (19, 84). Burada satılan müasir əkinçilik texnikası ancaq iri torpaq sahibləri tərəfindən alınırdı. Qəza əhalisinin çox hissəsi bu işləri ibtidai alətlərlə edirdi.

Azərbaycan kəndlərinə müxtəlif ticarət formalarının çoxlu miqdarda agentləri gəlirdilər. Onlar kəndləri gəzərək, gələcək məhsulu satın almaq üçün müxtəlif şərtlərlə sazişlər bağlayırdılar. Lakin tədricən bazarı olan taxıl rayonları yaranırdı ki, yerli kənd burjuaziyasının nümayəndələri olan möhtəkirlər həmin bazarlardan taxılı alaraq, dəmir yolu və dənizlə başqa yerlərə aparırdılar (9, 12). Məsələn, Lənkəran qəzasında taxıl 4 bazarda – Lənkəran şəhərində,

Asullıda, Xol-Təklə və Qızılağac kəndlərində satılırdı. Bunlardan Asullı bazarı ən böyüyü idi, buraya Lənkəran qəzasının bir çox yerlərindən satlıq taxıl gətirilirdi. Buradan da satın alınmış və qəzadan xaricə göndəriləcək bütün taxıl ixracının əsas nöqtəsi olan Qızılağac kəndinə aparılırdı. Qızılağacdan taxıl gəmilərə yüklənərək bazarlara, əsas etibarilə Bakı şəhərinə göndərilirdi (17, 101-102).

Taxıl ixracında Lənkəran şəhəri də az rol oynamırdı. Buğdanın pudu yerlərdə 80 qəpik, arpanın isə 60 qəpikdən 70 qəpiyə qədər idi. 1913-cü ildə Lənkəran qəzasında 3600 min pud buğda və 2600 min pud arpa satılmışdı (18, 101-102). Deməк, Lənkəran qəzasından taxıl satışından təxminən 4,5 milyon manat götürülmüşdü, bundan 1,5-2 milyon manatlığı qəzanın özündə, 2,5-3 milyon manatlığı isə qəzadan kənarda satılmışıdı.

XIX əsrin sonunda Bakı quberniyasında satışa gedən taxılın miqdarı 23628232 puda bərabər idi ki, bunun da 12399128 pudu Lənkəran qəzasının payına düşürdü (3).

Azərbaycandan ixrac olunan taxıl məhsulları içərisində çəltik görkəmli yer tuturdu. Məsələn, Lənkəran qəzasında bir ildə 1523 min puda qədər, yəni 1827600 manatlıq çəltik ixrac edilmişdi. Çox hallarda kəndlilər öz çəltiklərini buraya gəlmiş möhtəkirlərə satırdılar ki, onlar da aldıqları məhsulları gəmilərə dolduraraq Lənkəran, Astara və Qızılağac vasitəsilə başqa yerlərə göndərirdilər (17, 81). Bununla yanaşı dəmir yolu vasitəsilə də külli miqdarda çəltik ixrac olunurdu. Bu baxımdan, hər il Azərbaycandan 1,5-2 milyon pud, yəni 2-2,5 milyon manatlıq düyü aparılırdı.

Taxıl idxalı və ixracında Bakı şəhəri görkəmli rol oynayırdı. Dövrü mənbələrin verdiyi məlumata görə, "Son vaxtlar Salyan, Lənkəran və başqa yerlərdən Bakıya çoxlu buğda və arpa gətirilməsi nəzər-diqqəti cəlb edir. Vəliyevin gəmiçilik şirkətinin Kürdə üzən gəmilərinə də yalnız taxıllar yüklənir. Bu taxılın bir hissəsi Bakıya gətirilir, bir hissəsi isə Həştərxan və Zakaspi vilayətinə göndərilirdi" (8).

Deyilənlərə əsasən belə nəticəyə gəlmək olar ki, tədqiq etdiyimiz dövrdə Lənkəran qəzasında əkinçiliyin inkişafı nəticəsində, ticarət əkinçiliyi, yəni əmtəə istehsalı geniş inkişaf etmiş, ölkədə feodal münasibətlərinin qalmasına baxmayaraq kəndlərində əmtəə-kapitalist istehsalı, yəni kapitalist münasibətləri də inkişaf edirdi. Bunun əsas inkişafedici qüvvəsi sayılan kəndli öz torpağında əzimkarlıqla çalışır və yüksək keyfiyyətli məhsul əldə edirdi. O, özünü dolandırmaqla yanaşı, artıq məhsulu bazarlara da çıxarırdı. Bu baxımdan, qəzanın əkinçilik təsərrüfatında işləyib ödəmə ilə yanaşı olaraq, başqasının əməyinin ağır istismarına, yəni muzdlu əməyə əsaslanan kapitalist təsərrüfatı münasibətləri geniş yayılmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri (XIX-XX əsrin əvvəlləri). Bakı: Azərbaycan Elmlər Akademiyası, 1956, 254 s.
2. Андроников И.З. Культура риса на Кавказе. Тифлис, 1900.
3. Бакинский торгово-промышленный сборник на 1900 г., раздел «Хлебные запасы губернии».
4. Cavadov Q. Talışlar (tarixi-etnoqrafik tədqiqat). Bakı, Elm, 2004, 616 s.
5. Əsədov Firudin. Talış diyarının keçmişinə bir nəzər. Bakı: "Bilik" Maarifçilik cəmiyyəti, 1993, 43 s.
6. Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı: Azərnəşr, 1963, 112 s.
7. İsmayılov M. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 240 s.
8. Газ. "Кавказское сельское хозяйство", 1898, 4 июль, № 230.
9. Кавказский вестник. № 2, 1898.
10. Кавказ в сельскохозяйственном отношении в 1899 году. Тифлис, 1899.
11. Гулишамбаров С. Обзор фабрик и заводов Бакинский губернии. Тифлис, 1890.
12. Кистинев Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда Бакинской губернии. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. т. VII.
13. Краткий обзор коммерческой деятельности Закавказской железной дороги. Тифлис, 1902.
14. Легкобытов В. Талышинское ханство. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. СПб, 1836, ч.III.
15. ARDTA, f. 169, siy. 4, iş 1430.
16. Обзор действий наместника Кавказского края для развития сельского хозяйства с 1845 по 1850 г.г., Тифлис, 1851.
17. Очерк сельского и лесного хозяйства Ленкоранского уезда Бакинской губернии. Баку: 1914.
18. Обзор Бакинской губернии за 1910 г.
19. Петрович П. Хлопководство в Загавказье. Тифлис: 1912.
20. Свод материалов по изучения экономического быта государственных крестьян Закавказского края. IV том, Tiflis, 1888.
21. Шавров Н.Н. Остров Сара (строение, особенности, флора и фауна). Записки Кавказского отдела Императорского Русского Географического общества, книжка XXVI, выпуск V, Тифлис, 1909.
22. Вопросы истории. № 10, 1956 г.
23. Весь Кавказ. 1914 г., ч. II.

## ЗЕМЛЕДЕЛЬЧЕСКОЕ ХОЗЯЙСТВО ЛЕНКОРАНСКОГО УЕЗДА В НАЧАЛЕ XX ВЕКА (1900 – 1913 гг.)

**Б.Б.КЕРИМОВ**

## РЕЗЮМЕ

Земельная реформа, проведенная царской Россией в Азербайджане в 1870-ом году, значительно ускорила развитие капитализма в стране. Это привело в конце XIX – начале XX вв. в Ленкоранском уезде, как и в других уездах Азербайджана, к большому развитию земледельческого хозяйства и вовлечению его в общероссийский и мировой

товарооборот.

В уезде выращивались полевые – пшеница, ячмень, просо, рис, чечевица, кукуруза, горох, а также бахчевые – дыня, арбуз, тыква и др. культуры. Произведенный здесь рис высшего сорта хорошо продавался и приносил значительный доход. Таким образом, если в 90-е годы XIX века в Ленкоранском уезде сеяли 13000 десятин риса, 1905 году площадь посевов возросла до 54335 десятин. В Ленкоранском уезде в год производилось 2282 тыс. пудов риса, что составляло 25,2% Закавказских заготовок. Из произведенных в 1910-ом году в Бакинской губернии 12264974 пудов зерновых 2208910 пудов приходилось на Ленкоранский уезд.

В заключении отметим, что в результате развития земледелия в Ленкоранском уезде значительно увеличилась торговля, т. е. товарооборот сельскохозяйственной продукции, в земледелии уезда наряду оплатой за труд, широкое распространение жестокой эксплуатации чужого труда, другими словами, капиталистические отношения, основанные на наемном труде.

**Ключевые слова:** Азербайджан, Ленкоранский уезд, сельское хозяйство, земледелие, зерновое хозяйство, царская Россия

## THE AGRICULTURAL ECONOMY OF LANKARAN PROVINCE IN THE EARLY XX CENTURY (1900-1913)

**B.B.KARIMOV**

### SUMMARY

The land reforms carried out by tsarist Russia in Azerbaijan in 1870 significantly accelerated the development of capitalism in the country. This resulted in the development of farming in Lankaran province and its involvement in the Common-Russian and world trade.

The Lankaran province that covers the south – eastern part of Northern Azerbaijan is characterized by its mountaneous, and lowland zones.

Such crops as wheat, barley, millet, rice, lentils, corn, peas and melons - cantaloupe, watermelon, pumpkin were grown in the province.

**Key words:** Azerbaijan, Lankaran province, agriculture, farming, grain farming, tsarist Russia